


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Aprel 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# "BİZ YENİ İQTİSADİ MODEL ÜZƏRİNDƏ İŞLƏYİRİK VƏ ELƏ ETMƏLİYİK Kİ, ÖLKƏ İQTİSADİYYATI BUNDAN SONRA DA DAYANIQLI ŞƏKİLDƏ İNKİŞAF ETSİN"

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 05 aprel tarixində
Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün
yeni yaşayış kompleksinin açılışı mərasimindəki nitqindən



"Bildiyiniz kimi, biz indi çox ciddi iqtisadi islahatlar aparırıq. Bu islahatlar bizim maliyyə imkanlarımızı genişləndirir. Biz bu əlavə vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldirik. Beləliklə, keçən il prezident seçkilərində xalqın mənə verdiyi dəstək imkan verir ki, biz bütün vədləri icra edək. Seçkilər ərəfəsində bildirmişdim ki, biz yeni iqtisadi modelə keçid edəcəyik, bütün sosial məsələlərin həllinə çalışacağıq. Yəni, ciddi islahatların, iqtisadi və sosial sahədə islahatların anonsu prezident seçkiləri ərəfəsində verilmişdir. Seçkilərdən sonra ciddi islahatlara start verildi. Bu islahatlar çoxşaxəlidir. Siz və ictimaiyyət təbii ki, bu islahatları izləyirsiniz. Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək. Ölkəmiz yeniləşir, müasirləşir. Biz yeni iqtisadi model üzərində işləyirik və elə etməliyik ki, ölkə iqtisadiyyatı bundan sonra da dayanıqlı şəkildə inkişaf etsin...

Bizim iqtisadi vəziyyətimiz imkan verir ki, bu islahatları aparaq. İslahatlar bütün sahələri əhatə edir. Bir daha demək istəyirəm ki, biz inkişafın yeni mərhələsinə qədəm qoyduq".

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 11

2019-cu ilin I rübündə Azexport.az portalına 178, 4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

Azexport.az portalı Hindistana yun ixrac edəcəkdir ____ səh. 21

Cari ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 31,4 milyon ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır ____ səh. 22

"2019 İxraca Dəstək" mövzusunda təlim keçirilmişdir ____ səh. 25

Azərbaycanın 23 şirkəti Riqa şəhərinə təşkil olunan ixrac missiyasında iştirak etmişdir ____ səh. 26

Qətərə ixrac missiyası başa çatmışdır ____ səh. 27

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-MART AYLARINDA** qeyri-neft sektoru üzrə **415 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **59 milyon** ABŞ dolları və ya **16,5%** **ARTMIŞDIR**

2019-cu ilin yanvar-mart ayları ərzində Azərbaycan Respublikasının ixracı **4,5 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **1,1 milyard** ABŞ dolları və ya **34 faiz** artmışdır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən bu müddətdə qeyri-neft sektoru üzrə ixrac isə **415 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-mart ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **59 milyon** ABŞ dolları və ya **16,5 faiz** artmışdır. Cari ilin birinci rübü ərzində Rusiyaya **115 milyon**, Türkiyəyə **99 milyon**, Gürcüstana **50 milyon**, İsveçrəyə **33,7 milyon** və İtaliyaya **12,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin ilk üç ayında Rusiyaya qeyri-neft ixracı **17 faiz**, Türkiyəyə **2 faiz**, Gürcüstana **58 faiz**, İtaliyaya **74 faiz** artmışdır.

2019-cu ilin I rübü ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi **(38,4 milyon ABŞ dolları)** birinci, qabığı təmizlənmiş meşə fındığı **(38,4 milyon ABŞ dolları)** ikinci və mahlıc **(37,4 milyon ABŞ dolları)** üçüncü olmuşdur.

Həmçinin cari ilin yanvar-mart aylarında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), tomat (təzə və ya soyudulmuş), ilkin formalı polipropilen, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, xurma, metanol (metil spirti) da qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin birinci rübü ərzində meyvə-tərəvəz ixracı **103,5 milyon**, elektrik enerjisinin ixracı **38,4 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **48,4 milyon**, pambıq lifi ixracı **37,7 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **22,3 milyon**, kimya sənayesi məhsullarının ixracı **17,6 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **11,6 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **7,5 milyon**, pambıq ipliyi ixracı **6,4 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-mart aylarında pambıq lifinin ixracı **2,8 dəfə**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **2,8 dəfə**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **50 faiz**, kimya sənayesi məhsullarının ixracı **42 faiz**, pambıq ipliyinin ixracı **34 faiz**, meyvə-tərəvəzin ixracı **28 faiz**, elektrik enerjisinin ixracı **13 faiz** artmışdır.

2019-cu ilin mart ayında isə qeyri-neft sektoru üzrə ixrac **133,7 milyon** ABŞ dolları təşkil etmişdir. Cari ilin mart ayında qeyri-neft sektoruna aid ən çox mal Türkiyəyə (35,7 milyon ABŞ dolları), Rusiyaya (33,3 milyon ABŞ dolları) və Gürcüstana (13,2 milyon ABŞ dolları) edilmişdir.

2019-cu ilin mart ayında qeyri-neft sektoru üzrə ixracda qabığı təmizlənmiş meşə fındığı (13,7 milyon ABŞ dolları) birinciliyi əldə almışdır. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 12,3 milyon ABŞ dolları) ikinci, daranmaya məruz qalmamış pambıq lifi (11,4 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Eyni zamanda, 2019-cu ilin mart ayında ilkin formalı polipropilen, elektrik enerjisi, tomat, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti), emal olunmamış aşqarlanmamış alüminium qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin birinci rübü ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

2019 İXRAC İCMALI APREL

# 2019-CU İLİN **YANVAR-MART AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN MART AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2019-CU İLİN **YANVAR-MART AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**
**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR-MART AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI APREL

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Elektrik enerjisi | 38,4 | 33,9 |
| Fındıq ləpəsi | 38,4 | 23,7 |
| Mahlıc | 37,4 | 13,3 |
| Qızıl | 32,5 | 30,9 |
| Tomat | 25,5 | 24 |
| İlkin formalı polipropilen | 23,5 | 0,3 |
| İlkin formalı polietilen | 22, 4 | 26,3 |
| Xurma | 18,1 | 19,2 |
| Metanol (metil spirti) | 13,9 | 2,2 |
| Digər | 165,2 | 182,6 |












# 2019-CU İLİN **MART AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN Və 2019-CU İLİN **YANVAR-MART AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI APREL

## 2018



Yanvar

Qızıl
**17,2**



Fevral

Elektrik enerjisi
**17,7**



Mart

Elektrik enerjisi
**13,6**

## 2019



Yanvar

Xurma
**12,6**



Fevral

Elektrik enerjisi
**19,4**



Mart

Fındıq ləpəsi
**13,7**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-MART AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin birinci rübü üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-mart ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Socar Polymer" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "P-Aqro" MMC, "TST Export" MMC, "Sun Food" MMC, "Azhazelnut" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Baku Steel Company" MMC, "Azerstar" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Bakı Neft Maşınqayırma Zavodu" TASC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN **YANVAR-MART AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI APREL




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

## 2019-CU İLİN **YANVAR-MART AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2019 İXRAC İCMALI APREL






AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ Və KOMMUNİKASİYA MƏRKƏZİ

# 2019-CU İLİN **YANVAR-MART AYLARINDA "AZƏRKOSMOS" ASC 7,6 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2019 İXRAC İCMALI APREL



2019-cu ilin yanvar-mart aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **17 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **85 faizini** təşkil etmişdir. 2019-cu ilin mart ayında isə "Azərkosmos" ASC dünyanın 17 ölkəsinə **5,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-mart aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**








2019-cu ilin **I RÜBÜNDƏ**
Azərbaycana gələn xarici vətəndaşlar
**BANK KARTLARI VASİTƏSİ İLƏ**
**173,6 milyon** manatlıq əməliyyat aparmışlar

Cari ilin **MART AYINDA** ölkəmizə gələn
xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ İLƏ**
apardıqları əməliyyatların dəyəri
**98 milyon** manat təşkil etmişdir

2019-cu ilin yanvar-mart aylarında Azərbaycana dünyanın 157 ölkəsindən 610,8 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 28,0 faizi Gürcüstan, 27,4 faizi Rusiya Federasiyası, 11,3 faizi Türkiyə, 9,2 faizi İran, 3,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Ukrayna, 1,7 faizi Hindistan, 1,4 faizi İraq, 15,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 70,1 faizini kişilər, 29,9 faizini isə qadınlar təşkil etmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə Misirdən gələnlərin sayı 2,3 dəfə, Hindistandan - 1,8 dəfə, Səudiyyə Ərəbistanından - 1,8 dəfə, Türkmənistandan - 1,6 dəfə, Pakistandan - 1,5 dəfə, Çindən - 46,1 faiz, Yaponiyadan - 32,5 faiz, Gürcüstandan - 22,9 faiz, Omandan - 17,4 faiz artmışdır.

2019-cu ilin yanvar-mart aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,8 faiz artaraq 19,1 min nəfər, Körfəz ölkələrindən gələnlərin sayı 33,1 faiz azalaraq 106,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,1 faiz azalaraq 202,3 min nəfər olmuşdur.

2019-cu ilin yanvar-mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **271,6 milyon** manat olmuşdur.

Cari ilin mart ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **98 milyon** manat təşkil etmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**



**2017**

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**

**Cəmi - 250,4**

**2018**

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**

**Cəmi - 296,7**

**2019**

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**

**Cəmi - 271,6**

3

# 2019-CU İLİN I RÜBÜNDƏ AZEXPORT.AZ PORTALINA 178,4 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

**CARİ İLİN MART AYINDA** portala daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ 32,8 milyon** ABŞ dolları təşkil etmişdir.

2019-cu ilin yanvar-mart aylarında Azexport.az portalına **178,4 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. Cari ilin mart ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə **32,8 milyon** ABŞ dolları təşkil etmişdir. 2019-cu ilin yanvar-mart ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (11,5%), Türkiyə (9,9%), Hindistan (6,6%), ABŞ (5,9%) və Gürcüstan (5,3%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin mart ayında ən çox ixrac sifarişi pambıq lifi, pambıq yağı, soğan, tütün, şərab, nar şirəsi, çay, qənnadı məhsulları, konservləşdirilmiş tərəvəz, kosmetik vasitə, gül, fındıq, tikinti materialı, mühərrik yağı, dondurulmuş toyuq əti, biyan kökü və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 mart tarixinə kimi (27 ay ərzində) Azexport.az portalına dünyanın 126 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **1 167,5 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI APREL




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**
Mart - **32,8 milyon**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il |
|---|---|---|
| **CƏMİ - 475 milyon** | **CƏMİ - 514,1 milyon** | **CƏMİ - 178, 4 milyon** |



Son **27 ay** ərzindəki sifarişlərin cəmi - **1167,5 milyon**

# 2019-CU İLİN **MART AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI APREL

Pambıq lifi



Pambıq yağı



Soğan



Tütün



Şərab



Nar şirəsi



Çay



Qənnadı məhsulları



Konservləşdirilmiş tərəvəz



Kosmetik vasitə



Gül



Fındıq



Tikinti materialı




Mühərrik yağı



Dondurulmuş toyuq əti



# 2019-CU İLİN **YANVAR-MART AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ

2019 İXRAC İCMALI APREL



4

# AZEXPORT.AZ PORTALI HİNDİSTANA YUN İXRAC EDƏCƏKDİR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport.az portalının təşkilatçılığı ilə Hindistanın iri yun idxalçılarından olan "NaT IN" şirkətinin direktoru Bakıya səfərə gəlmişdir. Səfər çərçivəsində qonaqların Azərbaycanın qabaqcıl yun emalçılarından olan "Fərhad -91" MMC və "Drujba" MMC şirkətlərinin direktorları ilə görüşü təşkil olunmuşdur. Müzakirələrin yekunu olaraq tərəflər hər iki şirkətin iştirakı ilə Azərbaycandan il ərzində texniki göstəriciləri 25-29 və 29-34 mikron olmaqla ümumilikdə beş min ton qoyun yununun Hindistana ixrac olunması barədə ilkin razılığa gəlmişlər.

Qeyd edək ki, "NaT IN" şirkəti 35 ildən artıq müddət ərzində Yeni Zelandiya, Suriya, Yunanıstan, İspaniya, İtaliya, Misir və Çin başda olmaqla dünyanın 17-dən artıq ölkəsindən Hindistana yun idxalı ilə məşğuldur.



5

# CARİ İLDƏ "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 31,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ İXRAC REALLAŞDIRILMIŞDIR

2019-cu ilin aprel ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən sahibkarların ixracla bağlı sorğuları cavablandırılmış və onlara müvafiq sertifikatlar verilmişdir. Nəticədə cari ilin aprel ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə **10,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin ilk dörd ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə **31,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı reallaşdırılmışdır.

Cari ilin aprel ayı ərzində ixracatçılara əsasən polad pəstah, pambıq iplik tullantısı, pomidor, pendir, elektron avandanlıqların tullantısı, polad məftil, dondurulmuş Xəzər kilkəsi, polad boru, polad kvadrat pəstah, qiymətli metal külçələr, texniki ciyid, duzlanmış qoyun bağırsağı, balıq məhsulları, bəyaz şərab, meyvə şirəsi, nar tingi, plastik qırıntı tullantıları, biyan kökü, arpa, tütün və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir.

Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, Gürcüstan, Səudiyyə Ərəbistanı, İran, Yaponiya, İtaliya, ABŞ, İraq, İsrail, Kanada, Ukrayna, Avstriya, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Qazaxıstan, Hindistan daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



## 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)**






# 2019-CU İLİN APREL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ



# 6

# “2019 İXRACA DƏSTƏK” MÖVZUSUNDA TƏLİM KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "İnnovasiyalar Mərkəzi"nin və “My Broker” gömrük təmsilçiliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Dövlət Gömrük Komitəsinin rəsmi dəstəyi ilə ixracatçı sahibkarlara "2019 İxraca Dəstək" layihəsinin II hissəsi təqdim olunmuşdur.

Təlim çərçivəsində yerli istehsalın xarici bazarlara çıxarılmasının stimullaşdırılması və asanlaşdırılması üzrə ixrac gömrük əməliyyatında gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi, ixrac biznes strategiyası və beynəlxalq daşınmada işlərin hansı mərhələlər ilə həyata keçirilməsi barəsində məlumat verilmişdir.

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin meneceri ölkəmizdə ixracatçılar üçün hərtərəfli şərait və potensialın olmasını qeyd edərək 2019-cu il ərzində ixrac gömrük bəyannamələrinin tərtib olunması daxil olmaqla, yerli istehsalçılarımıza ixrac üzrə gömrük xidmətlərinin əksəriyyətinin ödənişsiz həyata keçirilməsi, ixrac gömrük bəyannamələrinin doldurulması istiqamətində maarifləndirici təlimlərin, habelə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların “My Broker” gömrük təmsilçiliyi şirkətinin ödənişsiz əsaslarla xidmətlərinin əhəmiyyəti barədə danışmışdır.

“My Broker” gömrük təmsilçiliyinin direktoru Rəşad Əliyev təlimin ixracatçılar üçün mühüm əhəmiyyətini vurğulayaraq onların xarici ticarət fəaliyyətlərini stimullaşdıracağını qeyd etmişdir.

Tədbirin sonunda maarifləndirici video-çarx nümayiş olunmuşdur. Təqdimatdan sonra təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.





7

# AZƏRBAYCANIN 23 ŞİRKƏTİ RİQA ŞƏHƏRİNƏ TƏŞKİL OLUNAN İXRAC MİSSİYASINDA İŞTİRAK ETMİŞDİR

“Made in Azerbaijan” brendinin təşviqi, yerli məhsulların xarici ölkələrdə tanıdılması məqsədi ilə cari ilin aprel ayında Latviyanın paytaxtı Riqa şəhərinə təşkil edilmiş ixrac missiyası başa çatmışdır. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə həyata keçirilən ixrac missiyasında şərab və digər spirtli içkilər, qida və tekstil məhsullarının istehsalı, habelə turizm sahəsində fəaliyyət göstərən 23 Azərbaycan şirkəti iştirak etmişdir.

Səfər çərçivəsində Azərbaycan sahibkarları potensial alıcılarla görüşlər keçirmiş, məhsulların ixrac imkanlarının genişləndirilməsi istiqamətində müzakirələr aparmışlar. Aparılan müzakirələrin nəticəsi olaraq, Azərbaycanın "Azhazelnut" və Latviyanın "Alisco" şirkətləri arasında 250 min ABŞ dolları dəyərində fındıq məhsulunun Latviyaya ixracına dair müqavilə imzalanmışdır.

Azərbaycanın “Mars Fk” və Latviyanın “Auglu Serviss” şirkəti arasında nar məhsulunun ixracına dair ilkin razılıq əldə olunmuşdur.







8

# QƏTƏRƏ İXRAC MİSSİYASI BAŞA ÇATMIŞDIR

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə cari ilin 12-16 aprel tarixlərində Qətərə təşkil olunmuş ixrac missiyasına yekun vurulmuşdur. İxrac missiyasında qida, tekstil, və tikinti məhsullarının istehsalı, habelə turizm sahəsində fəaliyyət göstərən 25 Azərbaycan şirkəti iştirak etmişdir.

İxrac missiyasına daxil olan Azərbaycan şirkətləri Qətərdən olan həmkarları ilə məhsulların satışının artırılması istiqamətində danışıqlar aparmış, razılıqlar əldə olunmuşdur. Belə ki, Azərbaycanın “İDEA” şirkəti Qətərin “Seven Continents Enterprises”, “Zebrano Wood Works”, “Redco Construction Alamana” şirkətləri ilə istehsal etdiyi məhsulun ixracına dair razılıq əldə etmişdir.

Bundan başqa, Azərbaycanın “FARKO”, “Delta Group C.O.”, “APİAZ”, “Brightman BMC” və “Azertexnolayn” şirkətləri istehsal etdikləri məhsulların Qətərə ixracına dair ilkin razılığa gəlmişdirlər.

Missiya çərçivəsində iki ölkənin turizm şirkətləri əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparmışdır.

MADE IN AZERBAIJAN






**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


